*Qədim, doğma Qobustanım*

# QOBUSTAN

*Qobustan Rayon İcra Hakimiyyətinin orqanı*

Qəzet 1992-ci ildən çıxır * **İCTİMAİ-SİYASİ QƏZET** * №006 (189) avqust 2019-cu il

# Qobustan rayonu İcra hakimiyyəti başçısının 2019-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları ilə bağlı tədbir

**Məlumunuz olduğu kimi 31 iyul 2019-cu il tarixdə Azərbaycan Respublikasının Prezidenti yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirə keçirilmişdir. Müşavirədə çıxış edən cənab Prezident bildirmişdir ki, ilin əvvəlində qarşımıza qoyduğumuz vəzifələr icra edilir, ölkəmiz inamla inkişaf edir, böyük infrastruktur layihələri icra olunur.**







İqtisadiyyatımız bu ilin altı ayında 2,4 faiz, qeyri-neft sektorumuz 3,2 faiz artmışdır. Ən sevindirici göstərici qeyri-neft sənayesindədir. Burada artım 15,7 faizdir. Bu, onu göstərir ki, son illərdə sənayeləşmə siyasəti gözəl nəticələr verir.

2019-cu ilin birinci yarısı rayonumuz üçün çox uğurlu olmuşdur. Ən yadda qalan hadisələrdən biri, cənab Prezidentimiz İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanımın rayonumuza səfəridir. Səfər zamanı müasir xəstəxana binasının, xalçaçılıq emalatxanasının, Regional yun qəbulu və boyaq bitkilərinin tədarükü məntəqəsinin, Qobustan-Poladlı yolunun açılışında cənab Prezident və Birinci Vitse-prezidentin iştirakı, keçirdiyi səmimi görüşlərlə bağlı hamınızın geniş məlumatı vardır.

Cənab Prezidentin səfərindən dərhal sonra imzaladığı sərəncamla 13 km-lik Ərəbqədim-Göydərə yolunun, 360 yerlik Sündü kənd tam orta məktəbinin, 48 mənzilli yaşayış binasının tikintisi üçün ümumilikdə 7 milyon manat vəsait ayrılmışdır. Növbəti ildə həmin obyektlər istifadəyə veriləcəkdir.

Bu il rayonda daxili imkanlar hesabına şahmat məktəbinin binası tamamlanmış, Təhsil Nazirliyi tərəfindən inventar və avadanlıqlarla təchiz edilmişdir. Yaxın vaxtlarda istifadəyə veriləcəkdir.

Cənab Prezidentin 2018-ci ildə imzaladığı sərəncam əsasında tikintisinə başlanmış 100 yerlik 2 saylı uşaq bağçasının biz açılışını etdik. Sevindirici haldır ki, 2017-ci ildə daxili imkanlar hesabına inşa edilmiş daha bir 100 yerlik bağça da bu il istifadəyə verildi, eyni zamanda Sündü kəndində əlavə bir qrupun açılması təmin olundu. Bununla da bağça yerlərinin sayı bu il 50 faiz artmışdır.

Bütün bunlar möhtərəm Prezidentimizin Qobustana və qobustanlılara göstərdiyi yüksək diqqət və qayğının yalnız bir hissəsidir. Məhz buna görə möhtərəm Prezidentimizə bütün qobustanlılar adından dərin minnətdarlığımızı bildiririk.

2019-cu ilin birinci yarısında Qobustan rayonunun yerli gəlirlər üzrə büdcə proqnozu 55,3 faiz artıqlaması ilə icra edilmişdir. Hüquqi şəxslərin əmlak vergisi 45,7 faiz, hüquqi şəxslərin torpaq vergisi 67,1 faiz, Əlavə Dəyər Vergisi 48,0 faiz, torpaq icarə haqqı 6 faiz, fiziki şəxslərin gəlir vergisi 8,4 faiz, sair daxilolmalar 20,0 dəfə artıqlaması ilə yerinə yetirilmişdir. Bununla yanaşı hüquqi şəxslərin mənfəət vergisi 91,8 faiz, sadələşdirilmiş vergi 61,2 faiz, torpaq icarə haqqı isə cəmi 18,1 faiz icra edilmişdir. Aidiyyəti şəxslər növbəti aylarda sadalanan tədiyyə növləri üzrə də planın 100 faiz icrasına nail olmaq üçün zəruri tədbirlər həyata keçirməlidirlər.

***Redakor***

# Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Təklə kənd sakinləri ilə səyyar görüş keçirtdi

**Kənd əhalisi əsasən heyvandarlıq və əkinçiliklə məşğuldur. Rayon İcra Hakimiyyətinin başçısı cənab Adil Məmmədov kənd sakinlərinin problemlərini, təklif və istəklərini dinləmək üçün 23 avqust 2019-cı il tarixdə Təklə kəndində səyyar görüş-qəbul keçirmişdir.**

*(Davamı səh.2-də)*





# Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Təklə kənd sakinləri ilə səyyar görüş keçirtdi

*(Əvvəli səh.1-də)*





Görüşdə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin işçisi Qalib Əsgərov da iştirak etmişdir. Tədbiri giriş nitqi ilə açan İƏD üzrə nümayəndə Hüseynağa Hüseynov gələn qonaqları salamlayaraq rayonumuzda aparılan abadlıq-quruculuq işlərinə görə ölkə prezdenti cənab İlham Əliyevə kənd sakinləri adından təşəkkür etdi. Sonra RİH-nin başçısı Adil Məmmədov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qobustan rayonuna səfərləri, dövlətimizin, və dövlət rəhbərinin rayonumuza diqqəti və qayğısı barədə sakinlərə məlumat verib. RİH başçısı bildirib ki, çoxsaylı sosial, istehsal, emal, infrastruktur obyektlərinin, yeni yolların açılışı, səfərdən sonra cənab Prezidentin qəbul etdiyi sərəncamlar Qobustan rayonunun geniş miqyasda, çoxistiqamətli inkişafı üçün möhkəm əsas yaradır. Hər bir inzibati ərazi dairəsi, hər bir kənd, hər bir rayon sakini qarşıya qoyulmuş vəzifələrin, yeni layihələrin həyata keçirilməsi üçün fədakarlıqla çalışmalıdır.

İcra hakimiyyətinin başçısı daha sonra kəndin həlli vacib problemlərindən və onların həlli yollarından danışıb. Qeyd edib ki, Vətəndaşlar hər bir addımda, hər bir fəaliyyət istiqamətində qanunçuluğa riayət etməli, xüsusilə də torpaqlardan istifadə, tikinti məsələlərində, enerji resurslarından istifadədə diqqətli olmalıdırlar. Görüş zamanı vətəndaşlar kəndə su xəttinin çəkilməsi, kənd məktəbinə ixtisas müəllimlərinin dəvət olunması ilə bağlı müraciət etmişlər. RİH başçısı qaldırılan məsələlərin həlli ilə bağlı aidiyyatı üzrə idarəmüəssisə rəhbərlərinə tapşırıqlarını verib.

# Qobustan rayon Sündü kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirtdi













***Qobustan rayon Sündü kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirtdi. Görüşdə ilk öncə Sündü kənd İƏD üzrə nümayəndə Fədai Balaqardaşov hesabat verərək il ərzində Sündü kəndində görülən işlər barədə danişdı. Sündü kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi 1 kəndi Sündü kəndini əhatə edir.***

Kəndimiz rayon mərkəzindən 17 km-lik məsafədə yerləşir.3100 nəfər əhali yaşayır.629 təsərrüfatdan ibarətdir.Ümumi torpaq sahəsi 3776 hektardır.Bundan 2219 hektarı əkinə yararlı və digər tarpaqlardan ibarətdir.Kənddə 1 tam orta məktəb,1 ümumi orta məktəb,1 uşaq baxçası,1 mədəniyyət evi,20 çarpayılıq xəstəxana,1 kitabxana,1 un dəyirmanı,150 yerlik ATS,3 mağaza və digər sosial obyektlər fəaliyyət göstərir.

Kənd əhalisinin məşğuliyyəti əkinçilik və heyvandarlıqdır.

2219 ha əkinə yaralı sahənin 2018-2019-ci məhsul ilində 2200 hektarı əkilmiş və hər hektardan 22 sentner məhsul əldə olunmuşdur. Yeni məhsul ili üçün sakinlər ciddi cəhdlə çalışırlar.Belə ki, 2150 hektar sahədə bu günə kimi əkin aparılmışdır.Ondan 1570 ha buğda və 540 ha sahədə isə Arpa səpini aparılmışdır.110 ton Ammofos gübrəsi və digər gübrələrdən istifadə olunmuşdur.Gəmiricilərə qarşı mübarizə mütəmadi olaraq aparılır.Əkin sahəlkərinin 20 %-nin gəmiricilərlə yoluxması qeydə alınmışdır.Əkin sahələrini sahibsiz mal-qaradan qorumaq üçün bütün tədbirlər görülür.Sakinlər arasında izahat işləri aaparılır.kifayət qədər kənd təsərrüfatı texhikası vardır.

Heyvandarlıq sahəsində də müəyyən işlər görülmüşdür.Heyvanlar üçün kifayət qədər yem tədarük edilmişdir.1700 baş iribuynuzli,7200 baş xırdabuynuzlu,11000 baş quş,300 arı ailəsi və digər heyvanlar vardır.İnfeksion xəstəliklərdən qorumaq üçün heyvanlar arasında qara yara, dabaq,emkar və digər xəstəliklərə qarşı proflakatiki yəni peyvəndləmə işləri aparılmışdır.Eyni zamanda heyvanların



cinc tərkibinin yaxşılaşdırılması məqsədilə süni mayalandırma texniki fəaliyyət göstərir.2018-ci ildə 45 baş cinc buzov alınmışdır.

Əhalinin içməli suya olan tələbatını ödəmək üçün müəyyən işlər görülmüşdür. Cənan prezident İlham Əliyevin sərəncamına əsasən kənd ərazisində 1 artezian quyusu qazılıb, tikinti quraşdırma işləri yekunlaşıb.Yaxın vaxtlarda quyu istifadəyə veriləcək.Buna görə ölkə başçısı cənab İlham Əliyevə kənd sakinləri adından çox sağ ol deyir və işlərində uğurlar arzulayırıq.

Sündü kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi işini cənab prezidentin qarşımıza qoyduğu vəzifələrə uyğun və Yerli icra hakimiyyətləri haqqında əsasnaməyə uyğun qurmuşdur.Kənd sakinləri günün istənilən saaatlarında qəbul edilir və onlara xidmət göstərilir.

Sonra kənd əhalisindən Alcanov İdris kəndin tarixi haqqında danışaraq ətraflı məlumat verdi. Məktəbin direktoru Məlikov Ziya ölkə rəhbər, cənab prezident İlham Əliyev Sündü kəndində 360 şagird yerlik müasir məktəbin tikilməsi üçün verdiyi sərəncam üçün bütün kənd sakinləri adından dərin təşəkkürlərini bildirdi. Bundan başqa vətəndaşlar İ.Abuzərov, Ə.Seyidəhmədov, N.Şahbazov çıxış edərək rayonumuzda aparılan quruculuq-abadlıq işlərinə görə cənab Prezidentimizə kənd sakinləri adından öz təşəkkürlərini bildirdilər. Telefon xətlərinin təmir olunması, internetin sürətinin artırılması və elektrik dirəklərinin yeniləri ilə əvəz olunmasını xahiş etdilər.

Sonda Qobustan RİH başçısı cənab Adil Məmmədov çıxış etdi. Kəndin problemləri ilə yaxından tanış olduğunu bildirdi. 2019- ci ildə ikinci dəfədir ki, Sündü kəndində əhalinin problemləri ilə yerindəcə tanış olmaq üçün bu kənddə iştirak etdiyini bildirdi. Sonra İcra Başçısı əkinçiliyə vaxt ayıraraq 2219 ha əkinə yararlı olan torpaq sahəsindən 2150 hektar əkilməsinin yaxşı hal olduğunu qeyd etdi. Sündü kəndində ziyanvericilərə qarşı mübarizə aparmaq üçün İƏD üzrə nümayəndə F.Balaqardaşova fermerlərlə bu barədə maarifləndirici tədbir aparmasını və qısa zamanda öz həllini tapmasını tapşırdı.

***Redaktor***

# Qobustan Mərkəzi Rayon Xəstəxanası




***Qobustan Mərkəzi Rayon Xəstəxanası 2019 -cu ilin may ayının 7-də olan açılışda şəxsən ölkə rəhbəri cənab İlham Əliyev və Birinci Vitse prezident Mehriban xanım Əliyevanın iştirakı ilə rayon əhalisinin istifadəsinə verilən 90 çarpayılıq müasir avadanlıqlarla təmin olunmuş bir xəstəxana kompleksidir.***

Belə ki, xəstəxanamızda 20çarpayılıq cərrahiyə şöbəsi 2 əməliyyat blokundan ibarət olmaqla, cərrahiyyə əməliyyatı keçirilməsi üçün bütün müasir avadanlıqlarla təmin olnmuş şəraitdədir. Ən çətin əməliyyatların keçirilməsi və əməliyyatdan sonra xəstələrə xidmət göstərmək üçün palatalar vardır.

20 çarpayılıq mama-genekologiya şöbəsi 2 əməliyyat blokundan ibarətdir. Bu şöbədə xəstələrə xidmət göstərmək üçün tam müasir avadanlıqlarla təmin olunmuşdur.






15 çarpayılıq Pediatriya şöbəsi uşaqlara xidmət göstərməsi üçün tam hazır vəziyyətdə olmaqla bir sıra ağır cərrahi patologiyaların əməliiyatı və əməliyyat sonrası nəzarəti (istər pediatrik, istər neonatal) ağır kardioloji problemi olan uşaqlara professional qulluq və yardım, invaziv kardioloji prosedurlar həyata keçirilməsi üçün müasir avadanlıqlarla təmin olunmuşdur.








Qobustan Mərkəzi Rayon Xəstəxanasının yeni binası istifadəyə verildikdən sonra son model TOSHİBA şirkənin məxsus radioloji avadanlıqlarda quraşdırılmışdır. Flüoroqrafiya, rentgen, kompyuter tamaqrafiyası , son istehsal Ultrasəs müayinə aparatı xüsusi otaqlarda quraşdırılmışdır. Bu avadanlıqları idarə etmək üçün xəstəxananın həkim və orta ixtisas tibb işçiləri bu avadanlıqları idarə edə bilmək üçün Bakı şəhərinə mavafiq kurs keçmək üçün ezam olunmuş və onlar müvəffəqiyyələ bu kursları bitirdikdən sonra işlərinin icrasına başlamışlar. Hal-hazırda həmin mütəxəssislər rayon sakinlərinə xidmət üçün hazırdırlar.

Xəstəxananın digər korpuslarında stomotoloji xidmət, yolxucu xəstəliklər şöbəsi, Terapiya şöbəsi və Təcili Təxirə salınmaz Tibbi Yardım şöbələri fəaliyyət göstərir. Bu şöbələrdə həkim mütəxəssislər və orta ixtisas tibb işçiləri tam məsuliyyətlə fəaliyyət göstərməkdədirlər.

Qobustan Rayon Mərkəzi Xəstəxansında bu şəraiti yaratdığı üçün ölkə rəhbəri prezidentimiz cənab İlham Əliyevə və Səhiyyə sahəsini daim diqqətində saxlayan, problemlərin həllində yaxından köməklik göstərən birinci vitse prezident , ixtisasca həkim olan Mehriban xanım Əliyevaya Qobustan rayon sakinləri və xəstəxananın kollektivi dından dərin minnətdarlığımızı bildiririk. Onlara uzun ömür, can sağlığı arzulayırıq.

***Qobustan RMX-nın baş mühasibi***
***Anar Bayramov***

# Sündü bələdiyyəsi və Sündü kəndində aparılan abadlıq-quruculuq işləri

***Müsahibim Sündü bələdiyyəsinin sədri Vəfa Canquliyevadır. O,öz müsahibəsində Sündü kəndi haqında məlumat verərək qeyd etdi ki, kəndimiz rayonumuzun ən qədim kəndlərindən biridir.***

Ən qədim kəndi olmaqla yanaşı sahəsinə və əhalisinə görə də böyük bir kənddir. Bir əsrlik tarixi olan məktəbi, 920-ci ildə inşa olunmuş məscidi, 20 yerlik xəstəxanası, mədəniyyət evi, uşaq bağcası bu gündə fəaliyyətdədir. Kəndimiz haqqında çox danışmaq olar. Əsasən bələdiyyənin son dövrlər gördüyü işlər haqqında danışmaq istəyirəm.

2019-ci ilin 6 ayı ərzində Sündü bələdiyyəsinə 4500 manatı vergidən, 2050 manatı dotasiyadan olmaqla 6550 manat vəsait daxil olmuşdur.

Daxil olmuş vəsaitin 1100 manatı idarənin saxlanması xərclərinə,250 manatı Dövlət Sosial Müdafiə Fonduna borcun ödənilməsinə, 5200 manatı isə təmir- tikinti, abadlıq, suvarma və yaşıllaşdırma işlərinə sərf olunmuşdur.

Sündü kəndində Mədəniyyət evinin kənarında hündürlüyü 5m,uzunluğu 15 m olan istinad divarı, kənd bulağının qarşısında hündürlüyü 3m, uzunluğu 12 istinad divarı çəkilmişdir. Bundan əlavə asfalt yolun kənarında 145metrlik hissə tikilmiş və məftil hasar çəkilmişdir.

Təmir tikinti işləri davam etdirilir.

Yaşıllıqlar daxili imkanlar hesabına maşınlarla suvarılır, qulluq gostərilir və qorunub saxlanılır. Yaşılıqların qorunmasında ciddi çətinliklərlə üzləşirik. Sahibsiz heyvanların yaşıllıqlara buraxılması tez-tez baş verir. Sakinlər öz küçələrində təmizliyə əməl etmirlər. Sündü kəndində aparılan bu abadlıq-quruculuq işlərinə yaxın zamanda bütün kənd əhalisi qoşulması üçün maariflǝndirmə işləri aparılır.

Sündü bələdiyyəsinin sədri V.Canquliyeva sonda qeyd etdi ki, sizi əmin etmək istəyirəm ki,dövlətçiliyə sadiq olan Sündü kənd sakinləri ölkə prezidenti cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət kursunu daim dəstəkləyəcək,umumilli liderimiz Heydər Əliyevin əbədiyaşar ideyalarının həyata keçirilməsi üçün bütün qüvvə və bacarığımızı səfərbər edəcəyik.

***Qobustan qəzetinin baş redaktoru***
***R.Şahbazov***

# Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Qobustan şəhər sakinləri ilə növbəti səyyar görüş keçirdi









**Qobustan Rayon İcra Hakimiyyətinin başçısı cənab Adil Məmmədov şəhər sakinlərinin problemlərini, təklif və istəklərini dinləmək üçün 16 avqust 2019-ci il tarixdə Qobustan şəhər Mərkəzi Xəstəxanada səyyar görüş-qəbul keçirmişdir.**

Tədbiri giriş nitqi ilə açan İƏD üzrə nümayəndə Məlikağa Əhədov gələn qonaqları salamlayaraq rayonumuzda aparılan abadlıq-quruculuq işlərinə görə ölkə prezdenti cənab İlham Əliyevə şəhər sakinləri adından təşəkkür etdi. Sonra RİH-nin başçısı Adil Məmmədov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qobustan rayonuna səfərləri, dövlətimizin, və dövlət rəhbərinin rayonumuza diqqəti və qayğısı barədə sakinlərə məlumat verib. RİH başçısı bildirib ki, çoxsaylı sosial, istehsal, emal, infrastruktur obyektlərinin, yeni yolların açılışı, səfərdən sonra cənab Prezidentin qəbul etdiyi sərəncamlar Qobustan rayonunun geniş miqyasda, çoxistiqamətli inkişafı üçün möhkəm əsas yaradır. Hər bir inzibati ərazi dairəsi, hər bir kənd, hər bir rayon sakini qarşıya qoyulmuş vəzifələrin, yeni layihələrin həyata keçirilməsi üçün fədakarlıqla çalışmalıdır.

İcra hakimiyyətinin başçısı daha sonra şəhərin həlli vacib problemlərindən və onların həlli yollarından danışıb. Qeyd edib ki, vətəndaşlar hər bir addımda, hər bir fəaliyyət istiqamətində qanunçuluğa riayət etməli, xüsusilə də torpaqlardan istifadə, tikinti məsələlərində, enerji resurslarından istifadədə diqqətli olmalıdırlar. RİH başçısı qeyd edilən məsələlərin həlli ilə bağlı aidiyyatı üzrə idarə-müəssisə rəhbərlərinə tapşırıqlarını verib.

# Qobustan rayonunda Dənli bitki toxumlarının emalı zavodu inşa edilir



***Tikintisinə 2019-cu ilin yanvar ayında başlanılan Qobustan rayonunda Dənli bitki toxumlarının emalı zavodu Kənd Təsərrüfatı Nazirliyi ilə "Arena-İnşaat" MMC arasında bağlanmış podrat müqavilə əsasında start götürmüşdür.***

Qobustan rayonunda Dənli bitki toxumlarının emalı zavodu 900 m² sahəsi olan toxum təmizləmə bloku əsas bina kimi tikilib quraşdırılır,binada son tamamlanma işləri görülür, işçilərin və idarə heyəti üçün müasir tələblərə cavab verən 2 mərtəbəli inzibati bina inşa olunmuş son tamamlanma işləri görülür.

Məlumat üçün qeyd etmək istəyirəm ki, hər biri 100m³ olmaqla 1 ədəd su anbarı, 1 ədəd yanğından mühafizə üçün su anbarı, nasosxana binası tikilmişdir.

Ərazini işıq enerjisi ilə təmin etmək və işıqlandırmaq məqsədilə 10 kvattlıq yarımstansiya quraşdırılıb və istifadədədir.

Müəssisənin ərazisində əsas qurğulardan 1000 tonluq 2 ədəd taxıl silo üçün dəmir-beton bünovrələr qoyulmuş, 2 ədəd isə 500 tonluq silo üçün anbarların dəmir-beton işləri işlənmişdir.

Avtomobil və elevator noryalarının dəmir-beton hissələri işlənməkdədir. Ümumilikdə tikinti başlandığı gündən bu günə kimi 1600 m³ beton işləri görülmüşdür. Hal-hazıra 100 tonluq tərəzinin dəmir-beton və izolyasıya işləri görülür.

Müəssisəyə məxsus 1,9 ha ərazidə asfaltlanma və yaşıllaşdırma işlərinə yaxın günlərdə başlanılması nəzərdə tutulur. Belə ki, əraziyə 500 ədəd bəzək, dekorotiv agaclar və 1000 ədəd qızılgül kolları əkilməsi üçün sifariş verilmişdir ki, bu da baş planda öz əksini tapmışdır. Təxminən 9000 m² sahənin asfaltlanması nəzərdə tutulmuşdur.



Ərazinin giriş hissəsində müasir tipli nəzarət- buraxılış məntəqəsi tikilib. Mişar daşları ilə hasarlanmış, suvaq olunmuş, işıqlandırılması üçün xəttlər çəkilmişdir. Bundan başqa ərazidə əkiləcək yaşıllıqların suvarılması üçün su xətləri çəkilməkdədir. Qeyd edək ki, ərazi 24 saat video müşahidə qurğuları ilə təmin olunması üçün ilkin işlərə başlanılmışdır.

Dənli bitkilərin toxumlarının emal zavodu istifadəyə verildikdən sonra saatda 5 ton toxumun təmizlənməsi gücündə olan avadanlıqlarla və saatda 50 ton məhsulun trasportirovkası gücündə olan avadanlıqlarla təmin olunması nəzərdə tutulmuşdur.

Qobustan rayonunda Dənli bitki toxumlarının emalı zavodu 2019-cu ilin sonuna kimi tikilib istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

***Qobustan qəzetinin baş redaktoru R.Şahbazov***





MƏLUMAT LÖVHƏSİ

1. **Tikinti obyekti:** Qobustan rayonunda Dənli bitki toxumlarının emalı zavodu

2. **Sifarişçi:** Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi

3. **Dölət Ekspertizasının rəyi:** Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 05.12.2018 - ci il tarixli, 26426 nömrəli rəyi

4. **Layihəçi:** "Azərdövlətlayihə" DBLİ, Lisenziya: İN/L - 23/2017. 12.01.2017.

5. **Podratçı:** "Arena İnşaat" MMC
Lisenziya: İN/L 887 / 2017 nömrəli 9 oktiyabr 2017- ci il.

# "ASAN könüllü"lər
















***Qobustan Rayon İcra Hakimiyyətində təcrübə keçən "ASAN könüllü"lərinə sertifikatlar təqdim olunub. Tədbirdə Qobustan Rayon İcra Hakimiyyəti başçısının müavinləri və könüllülər iştirak edib.***

Bu dəfə 5 könüllü əsasən icra hakimiyyətinin aparatında, həm də rayonda fəaliyyət göstərən təşkilat və müəssisələrdə 3 ay müddətində təcrübə keçiblər.

Sertifikatların təqdimetmə tədbirində bildirilib ki, hazırda respublika ərazisində keçirilən bütün beynəlxalq tədbirlərdə, eləcə də dövlət orqanlarının gündəlik fəaliyyətində könüllülərin misilsiz xidmətləri var. Qeyd edilib ki, könüllülük hərəkatının inkişafından 3 tərəf bəhrələnir: ilk növbədə, könüllü özü bəhrələnir. O, çalışdığı sahədə böyük təcrübə əldə edir, özü üçün yeni strategiyalar müəyyənləşdirir. Könüllülük fəaliyyəti onların fərdi inkişafına təsir edir və gələcək kadr kimi formalaşdırır. 2-ci bir tərəf isə müəssisənin özüdür. Belə ki, gündəlik fəaliyyətinə könüllüləri əlavə etməklə özünün iş yükünü bir qədər yüngülləşdirir, gəncləri fəaliyyət sahələrinə cəlb edir. 3-cü tərəf isə vətəndaşdır. Vətəndaş müəssisəyə yaxınlaşdıqda onu elə qapıdaca cavan, gülərüz, işləməyə həvəsli gənc könüllünün qarşılaması, onu lazımi yönə istiqamətləndirməsi və müraciət etdiyi məsələ ilə bağlı köməklik göstərməsi vətəndaş məmnunluğu yaradır. Beləcə könüllü + müəssisə + vətəndaş üçbucağı nəticədə tərəflərin səmərə əldə etməsinə dəlalət edir. Burada başlıca rolu isə məhz könüllülər oynayır.

Çıxış edən könüllülər təcrübə müddətində bir çox biliklərə yiyələndiklərini, rayon icra hakimiyyəti aparatının kollektivi tərəfindən qayğı ilə əhatə olunduqlarını və gələcək fəaliyyətlərində bu təcrübələrdən istifadə edəcəklərini bildiriblər.

Sonda könüllülərə sertifikatlar təqdim edilib.

# Qobustan rayonunun kəndlərinə suyun çəklişi davam edir

***2019-cu ilin 16 aprel tarixində cənab prezidentin göstərişi əsasında "Azərsu" ASC -nin sədri Qorxmaz Hüseynov Qobustan, Şamaxı, İsmayıllı və Ağsu sakinləri ilə görüşü zamanı Qobustan rayon sakinlərini də qəbul etmiş, onların kəndlərdəki su ilə bağlı problemlərini dinləmiş, qısa müddət ərzində bu məsələlər öz həllini tapacağına söz vermişdir.***



Belə ki, həmin görüşdən sonra Ərəbqədim, Göydərə, Cəmcəmli, Çalov,Cəyirli, Sündü və Xilmilli kəndlərinin su təminatının yaxşılaşdırılması məqsədi ilə dərhal aidiyyatı qurumları işə cəlb etmiş, həmin kəndlərə layihə-topoqrafiya işlərini həyata keçirilməsi üçün tapşırıqlarını vermişdir.

Qısa müddət ərzində adı çəkilən kəndlərdə layihə-topoqrafiya işləri yekunlaşmış, kəndarası şəbəkənin qurulması və sayğacların quraşdırılması işinə başlanılmışdır. Hal-hazırda Ərəbqədim kəndində 7122 paqon metr müxtəlif diametrlik polietilen borularla daxili şəbəkə qurulub , 150 abonentə sayğacın quraşdırılma işləri başa catdırılmışdır. O, cümlədən Göydərə kəndinə 4750 paqon metr, Cəmcəmli kəndində isə 5790 paqonmetr müxtəlif diametrlik polietilen borularla daxili şəbəkə qurulmuşdur. "Azərsu" ASC tərəfindən abonetlər üçün 450 ədəd sayğac verilmişdir ki, qısa müddət ərzində bu sayğaclar abonentlərin su xəttinə quraşdırılacaqdır. Adları çəkilən bu kəndlərdə kənddaxili şəbəkəlirin qurulması və sayğacların quraşdırılması işləri yekunlaşmaq üzrədir.



Digər kəndlərdə Çalov, Cəyirli, Sündü və Xilmilli kəndlərin də kənddaxili şəbəkənin qurulması üçün layihə-topoqrafiya işləri başa çatmış və hazırlıq işləri görülür. Yaxın zamanlarda şəbəkələrin qurulması işlərinə başlanılacaqdır.

Təkləmirzəbaba kəndinin də içməli su qıtlığının aradan qaldırılması üçün "Azərsu" ASC tərəfndən 500 paqon metr 50 mm diametrlik polietilen boru və 2 ədəd yeraltı dərinlik nasosu verilmişdir.

Bundan başqa "Azərsu" ASC tərfindən Yekəxana kəninin su təminatının yaxşılaşdırılması məqsədi ilə kəndin layihələ- topoqrafiya işlərinə start verilmişdir. Yaxın günlərdə bu kənddə də kənddaxili şəbəkənin qurulamsı işlərinin başlanılması nəzərdə tutulmuşdur. Deməк olar ki, yaxın vaxtlarda rayonumuzda qismində olsa suya olan tələbat təmin olunacaqdır.

Hal-hazırda "Azərsu" ASC Qobustan sukanal sahəsi 9303 nəfər olmaqla 2557 əhali abonentinə, 51 qeyri-əhali abonentinə fasiləsiz olaraq dayanıqlı, icməli su ilə təmin edir. Gün ərzində orta hesabla 4000-4500 m3 su Təsi su mənbəyindən Qobustan şəhərinə və Ərəbqədim , Göydərə, Cəmcəmli, Dərəkənd, Sədəf, Bədəlli, Təsi kəndlərinə su ilə təmin olunur.

2019-cu ilin 6 ayı ərzində 151428 m3 su qəbul olunmuş, əhali sektorunda 107 ?, digər sahələrdə 224?, ümumilikdə 125? su pulu vəsait toplanmışdır.

Su ilə bağlı problemi olan kəndlərin su təminatının yaxşılaşdırılması məqsədi ilə işlər aparılır. İnanırıq ki, yaxın vaxtlarda Qobustan rayonunun bütün kəndləri icməli su ilə tam təmin olunacaqdır.

***"Azərsu" ASC Qobustan sukanal sahəsinin rəisi B.Mehdiyev***

# Qobustan rayonunda taxıl bicini müvəffəqiyyətlə yekunlaşdı

***Ötən sayılmızda Qobustan rayonunda taxıl bicini haqqında məlumat vermişdik. Həmin məqalədə taxıl bicini rayon üzrə yekunlaşmadığı üçün tam məlumat verə bilməmişdik.***

Bu gün isə qeyd etmək istəyirəm ki, 2018-2019-cu məhsul üçün orta statistik rəqəm hər bir hektar dəqiqləşmişdir. Qobustan rayonunda 2018-ci ilin əkini 2019-cu ilin məhsulu üçün 31972 hektarda payızlıq və yazlıq əkini səpin işləri aparılmış, o cümlədən 22258 hektarda buğda, 9382 ha arpa və 311 ha sahədə noxud səpin aparılmışdır.

Bu ilki məhsul ilinin sonunda rayonumuzda 22258 ha buğda sahələrindən 56313 ton məhsul götürülmüşdür ki, bu da hər bir hektar üçün 25,3 sentiner olmuşdur. 9382 ha sahədə arpa biçilmiş 22235 ton arpa tədarük olmuşdur. Bu göstərici 23,7 sent/ha deməkdir. Məhsuldarlıq bu günkü gün üçün Qobustan şəhəri, Dərəkənd, Sündü, Cəyirli, Cəmcəmli, Poladlı,Yekəxana kəndlərində digər kəndlərdəki məhsuldarlığa nisbətən yüksək olmuşdur. Hal-hazırda növbəti əkin ili üçün 19015 ha sahədə şumlama işləri davam etdirilir.

# Yekəxana kənd sakinləri sosial problemlərinin həlli üçün ölkə rəhbərinə təşəkkür edir

**Qobustan rayon Yekəxana kəndi vaxtilə ən geridə qalmış, baxımsız bir kəndi idi. kənddə görülən işlər barədə danişdı. Yekəxana kəndinin ümumi ərazisi 2502 hektar, əhalisi isə 1088 nəfərdir. Kəndin əkinə yararlı sahəsi 575 hektardır.**

Kənddə 260 təsərrüfat 144 yaşayış evi var. Əhalinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır. Xüsusi ilə nar bağları vətəndaşlar üçün əhəmiyyətlidir.Ölkəmizin müstəqillik əldə etdiyi dövrdən sonra Yekəxana kəndi hələdə geridə qalmaqda idi. 2011-ci ildən rayonumuza təyin olunan RİH-nin başçısı Adil Məmmədov fəaliyyətə başladığı gündən kəndin hər bir sosial problemləri ilə yaxından maraqlanaraq, onların həllini tapması üçün müafiq işlər görməyə başlamışdı. Belə ki, 2014-cü ildə kəndin qazlaşdırılması başa cataraq, kənd əhalisinin istifadəsinə verildi. Kəndin əsas problemlərindən biri olan yol infrastrukturunun qurulması idi ki, bu da 2018- ci ildə öz həllinin tapdı. 2019-cu ildə ölkə rəhbərinin rayonumuza səfəri zamanı həmin bu yol cənab İlham Əliyevin iştirakı ilə açılışı olaraq kənd sakinlərinin istifadəsinə verildi.









Bu günlərdə isə icməli sudan əziyyət cəkən kəndimizin su ilə təminatı üçün Azərsu ASC- mütəxəssisləri tərəfindən layihələndirilmə işləri aparılmış, yaxın vaxtlarda hər evə su xəttləri cəkilərərk sakinlərin istifadəsinə veriləcəkdir. Bununlada qeyd edək ki, Yekəxana kəndinin bütün sosial problemləri öz həllini tapmışdır. Belə bir deyim vardır "Bir kəndin suyu, işığı, qazı, yolu varsa orda həyat var". Əlbətdə ki bu həyatı Yekəxana kəndinə ölkə rəhbərimiz, cənab İlham Əliyev bəxş etmişdir. Bütün kənd sakinləri bu işlərə görə ölkə rəhbərinə öz təşəkkürünü bildirir.

Bu gündə kənddə abadlıq-quruculuq işləri davam etdirilir. Belə ki, kənd arası 2400 m yol əhalinin köməkliyi ilə yenilənmiş, caydan gətirilmiş çınqıldaşalrı ilə örtülmüş, 4000 m-ə yaxın Təsi-Yekəxana suvarma arxları yenidən qurulmuşdur. Yekəxana bələdiyyəsi və İƏD -ə nümayəndəliyinin əməkdaşları üçün inzibati bina tikilmiş, binanın həyətində 0.5 ha sahədə park salınmış, meyvə və bəzək ağacları, qızılgül kolları əkilmişdir. Bələdiyyənin əməkdaşları tərəfindən həmin ağaclar diqqətdə saxlanılaraq qulluq edilir.

2018- 2019-cu məhsul ilində Yekəxana kəndi 575 ha əkin sahələrindən hər hektardan orta hesabla 23 sentiner məhsul götürmüşdür. Növbəti əkin ili üçün 450 ha sahədə şumlanılma işləri aparılmış və davam edir.

***Yekəxana bələdiyyəsinin sədri Bəxtiyar Babayev***

# Qobustan rayon Poladlı kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi





***Qobustan rayon Poladlı kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi. Görüşdə ilk öncə Poladlı kənd üzrə nümayəndə Ağayev Teymur hesabat verərək il ərzində kənddə görülən işlər barədə danişdı.***

Poladlı kəndinin ümumi ərazisi 8469 hektar, əhalisi isə 1820 nəfərdir. Kəndin əkinə yararlı sahəsi 1690 hektardır. Kənddə 430 təsərrüfat 273 yaşayış evi var. O, kənddə hal-hazırda yaşayan ailələr haqqında məlumat verdikdən sonra qeyd etdi ki, əhalinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır. Xüsusi ilə nar bağları vətəndaşlar üçün əhəmiyyətlidir.

Sonra kənd əhalisindən Quliyev Mürvət Qalib oğlu, Şirəliyev Əhsən Həsənxan oğlu, Bəndəliyev Nurəddin Səməndər oğlu, İsmayılov Tofiq Soltan oğlu və başqa vətəndaşlar çıxış edərək rayonumuzda aparılan quruculuq-abadlıq işlərinə görə cənab Prezidentimizə kənd sakinləri adından öz təşəkkürlərini bildirdi. Kənd əhalisinin rahatlığı üçün kənd məktəbinin əsaslı təmir olunmasını xahiş etdilər.



Sonda Qobustan RİH başçısı cənab Adil Məmmədov çıxış etdi. Kəndin problemləri ilə yaxından tanış olduğunu və aidiyyatı üzrə işlər görüldüyünü bildirdi. Yol ilə bağlı onu qeyd etdi ki, bir neçə ildir 6 yaşayış məntəqəsini birləşdirən Qobustan - Poladlı yolunun çəkilməsinə artıq nail olmuşuq. Artıq bu kəndimizdə də yol problemi öz müsbət həllini tapdı. Kənddə kənd təsərrüfatına xüsusi yer verildiyini və bütün əkinlərin vaxtında düzgün biçilməsini tapşırdı. Sonra qeyd etdi ki, rayonumuza göstərilən bu qayğıya görə cənab prezidentimiz İlham Əliyevə öz təşəkkürümüzü bildiririk.

Vətəndaşlara bildirlidi ki, göstərilən məsələlər də tez bir zamanda öz həllini tapacaq.



# Xilmilli kənd sakinləri ilə səyyar görüş

***Qobustan rayon Xilmilli kənd tam orta məktəbdə Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Xilmilli kənd sakinləri ilə səyyar görüş keçirdi.***

Görüşdə Rayon İcra Hakimiyyəti başçısının müavini, aparatın şöbə müdirləri iştirak edirdi. Sakinlər çıxış edərək rayonumuzda gedən abadlıq və quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirdilər və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş etdilər. Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə konkret tapşırıqlar verdi.



# Qobustan Rayon İcra Hakimiyyətinin başçısının Ərəbşalbaş kəndinin sakinləri ilə növbəti səyyar görüşü keçirildi









***Qobustan rayon Ərəbşalbaş kənd inzibati ərazi dairəsi üzrə nümayyəndəliyində Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Ərəbşalbaş kənd sakinləri ilə səyyar görüş keçirtdi.***

Görüşdə Rayon İcra Hakimiyyəti başçısının müavini, aparatın şöbə müdirləri iştirak edirdi. Sakinlər çıxış edərək rayonumuzda gedən abadlıq və quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirdilər və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş etdilər. Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə konkret tapşırıqlar verdi.





## "Qobustan" qəzetinə

# İşinin vurğunu olan insan

***Abdulhəsən Ağayev 1947-ci ildə Qobustan rayonunun Poladlı kəndində dünyaya göz açıb.***

Mərhum Ağadayı kişinin bu evi həmişə el dili ilə desək qonaqlı-qaralı olub. Balaca Abdulhəsən də həmin qonaqların xeyir-duasını alaraq, öz bəhrəsini görmüşdür. Atalar demişkən "hər ağızda bir dua var" kəlamı yerinə düşmüşdür.

Orta məktəbi bitirdikdən sonra sənədlərini o vaxtkı Baki Plan Uçot texnikumuna verir. Həmin texnikuma daxil olur və müvəffəqiyyətlə bitirərərk mühasib ixtisasına yiyələnir.

Doğma kənddəki təsərrüfatda ixtisası üzrə işləməyə başlayır. Onun işgüzarlığını görüb daha mühüm vəzifələrə irəli çəkirlər. Baş mühasib, kolxoz sədri, sovxoz direktoru və Kənd İcra Nümayəndəsi kimi vəzifələrdə çalışır. Səmimiyyətinə görə elə gənc yaşlarından "el ağsaqqalı" kimi tanınır. Ona müraciət edən hər bir insana qayğı ilə yanaşır.

Həmişə ictimaiyyətlə bir yerdə olan A. Ağayev dövlətimizin hər sahədə uğur qazanmasında fəal iştirak edir.

Abdulhəsən Ağayev 2012-ci ilin oktyabrında Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının Qobustan Rayon təşkilatının sədri seçilir.

O, mütamadi olaraq rayonda yaşayan müharibə, əmək və silahlı qüvvələrin veteranları ilə görüşlər təşkil edir, onların hər bir probleminə diqqətlə yanaşır.

Son dövrlər təşkilatın keçirdiyi tədbirlərin xronikasına qısa nəzər salaq:

Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədovun yaxından iştirakı ilə aprel döyüşlərində şücaət göstərmiş həmyerlimiz zabit Bağıyev Mirqamət Səristan oğlu ilə görüş keçirilmişdir.

9 May Qələbə Gününün hər il yüksək təntənə ilə qeyd olunması ənənə halını almışdır.



Adını daşıdığı şəhid Mahir Kərimovun ad günü Poladlı kənd tam orta məktəbində təşkilatın yaxından səyi ilə hər il anılır.

Sağlamlığını erkən itirmiş gənclər də Abdulhəsən müəllimin diqqətindən yayınmır. Onların toy məclislərində yaxından iştirak edir və bir baba nəvazişi göstərir.

Abdulhəsən Ağayev yaxın ərəfədə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə dövlət xidmətinin Qobustan Rayon bölməsinin rəisi İxtiyar Əhmədovla Nabur kəndində olmuş və Böyük Vətən müharibəsinin veteranı Şahalıyev Məhəmmədlə görüşmüşlər. Onun həyat tərzi ilə yaxından tanış olmuşlar. Rayon İcra Hakimiyyətinin Başçısı Adil Məmmədovun salamını ona yetirərək, sərəncama əsasən " Fəxri Fərman"ı ona təqdim etmişlər.

Abdulhəsən Ağayev həm də həm də YAP Qobustan Rayon təşkilatının Poladlı kəndi üzrə sədridir.

O bu işin də öhdəsindən bacarıqla gəlir. Məhz buna görə də kənddə demək olar ki, gənclər həvəslə YAP-nın sıralarına qəbul olunurlar.

A, Ağayev gördüyü işlərin bəhrəsinin almışdır. Dəfələrlə Qobustan Rayon İcra Hakimiyyətinin Başçısının və YAP Qobustan Rayon Təşkilatının "Fəxri fərman"larına layiq görülmüşdür. Veteran hərəkatında fəal iştirakına görə "30 il" yubiley medalı ilə təltif edilmişdir.

Ən sevindirici hal odur ki, A. Ağayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabının 27 may 2019-cu il tarixli sərəncama əsasən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018) yubiley medalına layiq görülmüşdür.

Təşkilatın işində həmişə Rayon İcra Hakimiyyətinin Başçısı A. Məmmədovun yaxından köməkliyi hiss olunur. Bu yazının müəllifi kimi həmişə şahid olmuşam ki, hörmətli başçı A. Məmmədov tədbirlərdə Abdulhəsən Ağayevin işini önə gətirmiş və gənclərə onu örnək kimi göstərmişdir.

A.Ağayev həm də gözəl ailə başçısıdır. Bu qonaqlı-qaralı evdə ömür-gün yoldaşı Laizə xanım ona həmişə dayaq olmuşdur. Onların nəvələri- Elmin və Murad "N"saylı hərbi hissələrdə müddətdən artıq xidmət edirlər.

Abdulhəsən müəllim hər gün bu şərəfli işin başındadır. Deyir ki, yaşım ötsə də amalım xalqıma xidmətdədir. Bu arada aşağıdakı bir bənd şeir yerinə düşür.

***Ağrıtmayan ürək ola, baş ola,***
***Can sirdaşım torpaq ola, daş ola.***
***Arzuların sayı qədər yaş ola,***
***Ömür verən xidmətinə xalqımın.***

***Məhəmməd Bayramov***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Qobustan rayonunda heyvandarlıq sahəsində fəaliyyət göstərən bir qrup fermerə İribuynuzlu heyvanlarda qan-parazitar xəstəliklərinin profilaktikası və mübarizə tədbirləri mövzusunda təlim keçirilib







***Qobustan rayonunda heyvandarlıq sahəsində fəaliyyət göstərən bir qrup fermerə İribuynuzlu heyvanlarda qan-parazitar xəstəliklərinin profilaktikası və mübarizə tədbirləri mövzusunda təlim keçirilib. Təlim Qobustan rayon Baytarlıq İdarəsinin rəisi İntiqam Balakişiyev tərəfindən təsərrüfat şəraitində aparılıb.***

İribuynuzlu heyvanlarda qan-parazitar xəstəliklərinin profilaktikası və mübarizə tədbirləri mövzusunda keçirilən təlim rayonun Babayev Kamala məxsus heyvandarlıq fermasında baş tutub.Fermerlərə iribuynuzlu heyvanların qan-parazitar xəstəliklərinin xüsusiyyətlərindən və iqtisadi zərərindən bəhs olunub.Qan-parazitar xəstəliyin gənələr vasitəsi ilə yayılmasını nəzərə alaraq yay mövsümündə heyvanların ən azı həftədə bir dəfə akarasid vasitələrlə işlənməsinin vacibliyi önə çəkilib.Xəstəliyin müalicəsinin fermerlərin vəsaiti hesabına aparıldığı vurğulanıb. Təlim iştirakçıları heyvanların ektoparazitlərə qarşı çimizdirilməsi, çimizdirmədən əvvəl və sonra görüləcək tədbirlər barədə məlumatlandırılıb.

Heyvanlar qan-parazitar xəstəlikləri ilə xəstələndikdə mütləq baytar həkiminə müraciət edilməsi, akarasid dərmanların saxlanılması və işlədilməsi zamanı təlimata əməl olunmasının zəruriliyi qeyd edilib. Eləcə də qan-parazitar xəstəliklərinin müalicəsindən yeni müalicə mütodları və preparatlar haqqında ətraflı məlumatlar verilib.

Təlimlərdə heyvan sağlamlığı və heyvanlarda insanlara keçə bilən xüsusi təhlükəli xəstəliklər,onların yaranma səbəbləri, profilaktikası və qarşısının alınması yolları, eləcədə xidmətin bu sahədə həyata keçirdiyi tədbirlərə də toxunulub. Təlimlərdə baytarlıq preparatlarının istifadəsində şəffaflığın təmin edilməsi məqsədilə üzərində Satıla bilməz yazılmış biopreparatların və dərman maddələrinin heyvanlara təmənnasız tətbiq edilməsi,baytarlıq preparatların və vaksinlərin istifadəsi zamanı təhlükəsizlik qaydalarına əməl olunması,sahibkarlar tərəfindən özbaşına -baytar həkiminin iştirakı olmadan heyvanlara dərman preparatlarının verilməsi və gənələrə qarşı çimizdirilmə aparılan zaman təlimatın gölənilməməsi, heyvanların yem rasionuna düzgün əməl edilməsi və digər mühüm amillərin nəticəsində yaranan fəsadlar barədə ətraflı müzakirələr aparılıb. Təlimlərdə həmçinin, xəstəliklərə qarşı ölkədə tətbiq olunan vaksinlərin əhəmiyyətindən danışılıb.Arıların və heyvanların bəslənib saxlanması ilə məşğul olan fermerlərin qatıldığı təlimlərdə sözügedən xəstəliklərin qarşısının alınması və onların idarə olunması,təsərrüfatlarda rast gəlinən xəstəliklər ,bu sahədə fermerlərin görə biləcəyi tədbirlər, baytar-sanitariya qaydaları,xəstəlik törədicilərinə qarşı aparılan mübarizə yolları, eləcə də baytarlıqt tədbirləri aparılan zaman zəruri sayda təhlükəsizlik qaydalarına əməl edilməsi, dezifeksiya, dezinseksiya işlərinin görülməsi, heyvanların cins tərkibinin yaxşılaşdırılması, yemləmə, bəsləmə qaydaları, profilaktik tədbirlərin vaxtlı-vaxtında icrası, mövsümlə əlaqədar baş verən xəstəliklər və onlarla mübarizə, təsərrüfatlarda tez-tez rast gəlinən xəstəliklər barədə məlumatlar verilib. Sonda fermerləri maraqlandıran suallar cavablandırılıb və fikr mübadiləsi aparılıb .

Hal-hazırda rayonun epizootik vəziyyət sabitdir.

## 2019-cu ilin avqust ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr, ödənilməli vergilər və sığorta haqqları barədə YADDAŞ

Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssisələr

✦ 2019-cu il üzrə hesablanmış torpaq vergisinin yarısını cari ilin avqust ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

✦ 2019-cu ilin 3-cü rübü üzrə hesablanmış əmlak vergisinin cari ödəmələrini cari ilin avqust ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**2019-cu ilin iyul ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

**Əlavə dəyər vergisinin bəyannaməsi,**
**Aksiz bəyannaməsi,**
**Yol vergisinin bəyannaməsi,**
**Mədən vergisinin bəyannaməsi,**
**Pul vəsaitlərinin nəqd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsi və**
**Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan verginin bəyannaməsi**

2019-cu ilin avqust ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

✦ Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi 2019-cu ilin avqust ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

✦ Muzdlu işlə əlaqədar 2019-cu ilin iyul ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi 2019-cu ilin avqust ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - 2020-ci ilin yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 2019-cu ilin 3-cü rübü üzrə bəyannaməni 2019-cu ilin oktyabr ayının 21-dən gec olmayaraq təqdim edirlər).

✦ Xüsusi notariusların 2019-cu ilin iyul ayı üzrə hesabladığı gəlir vergisi 2019-cu ilin avqust ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2019-cu ilin 3-cü rübü üzrə bəyannamə 2019-cu ilin oktyabr ayının 21-dən gec olmayaraq təqdim edilməlidir).

✦ Məcburi dövlət sosial sığortası və işsizlik sığortası üzrə 2019-cu ilin iyul ayı üzrə hesablanmış sığorta haqqları 2019-cu ilin avqust ayının 15-dən gec olmayaraq tam həcmdə nəqdsiz formada dövlət büdcəsinə ödənilməlidir.

***Qeyd: 20.10.2019-cu il tarixi qeyri-iş gününə təsadüf etdiyindən həmin tarixdə təqdim edilməli bəyannamələrin təqdim edilməsinin son müddəti 21.10.2019-cu il tarixə keçirilmişdir.***

## ELANLAR

Nazarov İkram Seyidrza oğluna və ailə üzvlərinə DT və XK tərəfindən verilmiş, Qobustan rayonu Nərimankənd kəndində yerləşən JN-449nömrəli kod 30712028 torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti
www.qobustan-ih.gov.az

*Baş redaktor:* Ruslan Şahbazov
Tel.: (050) 524 28 10
(070) 224 28 10

*Ünvan:*
Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Son dəqiqə" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
E_mail:qobustanqazeti@mail.ru